Aqrar Xidmətlər
Agentliyi

# ZİYANKAR BAĞACIQ

## (Eurygaster integriceps) (Puton)



088-588
axa.gov.az

## Zərərli orqanizm haqqında

Yetkin bağacığın bədən uzunluğu 9-12 mm, eni isə 6-7 mmdir. Rəngi bozumtul sarıdan, tutqun darçınıya qədər dəyişə bilir. Baş üçbucaq formasında olmaqla döşün alt tərəfinə doğru uzanmışdır. İldə bir nəsil verir. Yetkin fərd (imaqo) halında meşələrdə, meşə zolaqlarında, kolluqlarda, bağlarda, döşənəkdə hərəkətsiz halda qidalanmadan qışlayır. Erkən yazda martın axırı, aprelin əvvəllərində temperatur 9-10 C olduqda bağacıqlar qış yuxusundan oyanır, orta temperatur 12 C-yə çatdıqda onlar qışlama yerlərindən taxıl sahələrinə uçmağa başlayır

## Mübarizə tədbirləri

**Aqrotexniki mübarizə;**

Növbəli əkin sisteminə əməl edilməli;

Torpaq səpin üçün diqqətlə hazırlanmalı;

Sahəyə gübrə verilməli;

Səpin norması və səpin vaxtına ciddi əməl edilməli;

Alaqlar məhv edilməli, normal sıxlıqlı əkin aparılmalı;

Bağacığın qışlama yerləri dağıdılmalıdır.

**Bioloji mübarizə**;

Bağacığın təbii düşmənləri olan yumurta yeyən Telenomus və Faziya milçəklərinin xüsusi yeri vardır.